# ASİF AZƏRELLİ YARADICILIĞINDA NAXÇIVAN MÖVZUSU

**Emil AĞAYEV**
**Sənətşünaslıq üzrə magistr**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Emilaghayev93@mail.ru**

İncəsənət insanlarda estetik zövq formalaşdırdığı kimi, həm də vətənə, torpağa olan sevgini daha da dərinləşdirir. Azərbaycan təsviri sənətində mənzərə janrının inkişafına diqqət yetirsək, rəssamlarımız tərəfindən doğma diyarımızın dilbər guşələri bir-birindən maraqlı tablolarda canlandırılmışdır. Sözsüz ki, tarixi abidələri, görməli yerləri ilə məşhur olan Naxçıvanda rəssamlarımızın təsvir obyekti olmuşdur. Müasir Azərbaycan rəngkarlığının milli ənənələrinə sadiq qalan Əməkdar rəssam Asif Azərelli (Rzayev) yaradıcılığında da "Naxçıvan" silsiləsi mühüm yer tutur.

Asif Azərelli vətənpərvər ruhlu rəssam kimi daima öz tablolarında "Qarabağ", "Quba", "Bakı", "Göyçay" və digər ərazilərimizin mənzərələrinə geniş yer ayırmışdır. Rəssamın "Naxçıvan" silsiləsinə daxil olan "Batabat" (2007) əsərində dumanlı dağlar önündə əfsanəvi gölün təbiətlə vəhdətdə verildiyini qeyd etməliyik. Gölün üzərində ağ kölgələrin yaratdığı ifadə, atların qaçışı əsərə dinamiklik gətirir. 2006-cı ildə Rusiyanın Kirov şəhərində yerləşən restoranların birində "Azərbaycan" adlı divar rəsmlərində Möminəxatun türbəsi önündə rəqs edən gənclərin yallı getməsi, üzlərindəki ifadə, milli geyimləri buraya gələn insanlarda ölkəmizin tarixinə monumental əsərlərlə bir daha səyahət etdirilir.

"Möminəxatun türbəsi" əsərində rəssam natürmort və mənzərə janrlarını vəhdət şəklində əlaqələndirmişdir. Çiçəklərlə dolu açılan pəncərədən məşhur Memar Əcəminin Möminəxatun türbəsi və abidəni heyranlıqla izləyən turistlər diqqəti cəlb edir. 2009-cu ildə rəssamın müəllifi olduğu digər kompozisiyada arxa fonda İlanlı dağ, ön hissədə Qarabağ xalçası və Göyçay narının təsviri xalqımızın zəngin tarixindən xəbər verir. "Vətən" (2010) kompozisiyasına diqqət yetirsək, qarlı İlanlı dağı, təbiətin rəngarəngliyi, cavanların qocanın söhbətinə qulaq asması, insan və təbiət mövzusunun onun yaradıcılığında əsas leytmotiv olduğunu qeyd etməliyik.

Əməkdar rəssam öz kompozisiyalarında ilin müxtəlif fəsillərində Naxçıvan torpağının gözəlliyini vurğulayır. "Naxçıvan payızı" (2009) əsərində kənd insanlarının həyatı, məişəti, rəssamın yaradıcılığının əsas ideyası olan insan və təbiətin vəhdətini bir daha hiss edə bilərik. Qızılı rəngin simvolik həlli, arxa fonda kənd evləri, İlanlı dağ tamaşaçının gözü qarşısında doğma torpağın vedutasını canlandırır. Rənglərin axıcılığı, təbiətin çiçək açması, puantilizm cərəyanının xüsusiyyətləri "Naxçıvan baharı" (2009) əsərində aydın hiss edilir.

Asif Azərelli yaradıcılığında Ümummilli Lider Heydər Əliyevə həsr edilən maraqlı kompozisiyalardan biri də "Heydər Əliyev Naxçıvanda" (2010) adlanır. İş otağında əyləşən dahi liderin vətənpərvər baxışları, öz xalqını sevən şəxsiyyət obrazı qürur hissi yaradır. Arxa fonda açılan pəncərədə Möminəxatun abidəsinin təsviri əsərə quruculuq, qüdrətlilik, güc, qüvvə kimi bitkinlik xarakteri gətirir.

Müasir Azərbaycan təsviri sənətinin mənzərə janrının inkişafında mühüm ter tutan Asif Azərellinin "Naxçıvan" silsiləsinə daxil olan hər bir əsəri xüsusi təhlil xarakterinə malik olmaqla yanaşı, həm də tamaşaçıları bir daha həmin yerlərə səyahət etdirir.

**THE THEME OF NAKHCHIVAN IN THE WORKS OF ASIF AZERELLI**

**Emil Agayev**
**Master Degree Student**
**Azerbaijan State Academy of Fine Arts**

**Summary**

It is spoken in the article the series of paintings under the title Nakhchivan by the Honored Artist of Azerbaijan Asif Azerelli (Rzayev). The description of Azerbaijan's nature is one of the main topics of the painter's creativity. The painter created such famous works as "Karabakh", "Quba", "Baki", "Goychay" with great love and admire to the beauty of his motherland. The cycle of paintings "Nakhchivan" is one of the most important among painter's works. It includes such paintings as "Batabat (2007), wall paining "Azerbaijan" (2006), "Motherland" (2010), "Autumn in Nakhchivan" (2009), "Momine-Khatun mausoleum" and "Heydar Aliyev in Nakhchi-van".

At the painting "Batabat" the artist described one of the most picturesque places of Azerbaijan located in Nakhichivan "Batabat" lake. This picture is one of the best among artist's landscapes. Wall painting "Azerbaijan" is the composition with the view of dancing people group on the front side of "Momine-khatun" mausoleum famous architectural monument of XII century located in Nakhichevan. This painting is exhibited in Russia at one of the famous restaurants in Kirov. At the picture "Autumn in Nakhichivan" the artist described the beauty of Azerbaijan's nature in autumn. The picture "Momine khatun" is the landscape view of one of the pearls of Azerbaijan's national architecture "Momine Khatun" mausoleum. The portrait of the national leader of Azerbaijan H.Aliyev is considered as one of the best works in this style in Azerbaijan. The artist expressed the ties of the leader who was born in Nakhichivan with his homeland in artistic way he described the famous architectural monument "Momine khatun" mausoleum on the back side of the portrait. Asif Azerelli (Rzayev) is one of the best painters whose creative activity made a great influence on the development of landscape style in modern Azerbaijani fine arts.